**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.1.88**

**TOĞRUL XƏLİLOV**

# NAXÇIVAN ŞƏHƏRİ ƏRAZİSİNDƏ AŞKAR OLUNMUŞ ŞİRSİZ QABLARIN NAXIŞ MOTİVİ HAQQINDA

*Tariximizin dərindən öyrənilməsində abidələrimizdən əldə olunmuş arxeoloji materialların öyrənilməsi mühüm elmi əhəmiyyət daşıyır. Bu cəhətdən hər bir maddi mədəniyyət nümunəsi kimi Naxçıvan şəhərinin ərazisində aşkar olunmuş Orta əsrlər dövrünə aid olan bir qrup gil qabların öyrənilməsi də mühüm yer tutur. Onların öyrənilməsi nəticəsində müəyyən edilmişdir ki, qədim dövrdə olduğu kimi, bu dövrdə də heç bir gil qab təsadüfən düzəldilməmiş, müxtəlif məqsədlə istifadə edilmişdir. Onların səliqəli və keyfiyyətli olması, üzərindəki naxış motivi dulusçuların sənətkarlıq qabiliyyəti ilə bağlı olmuşdur. Hər bir naxış motivi qaba gözəllik görünüş verməklə yanaşı, müəyyən semantik məna da daşımışdır. Onların hamısının eyni olmaması, forma və xüsusiyyətinə görə bir-birindən fərqlənməsi onunla bağlı olmuşdur ki, onlar həm təyinatına görə, həm də müxtəlif dulusçu emalatxanasının məhsulu olduğu üçün bir-birindən fərqlənir.*

**Açar sözlər:** *Naxçıvan, Orta əsr, gil qablar, naxış motivi.*

**Giriş.** Naxçıvan Muxtar Respublikası əlverişli təbii-coğrafi mövqeyə, qədim və zəngin tarixə malikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qeyd olunduğu kimi Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindən birini təşkil edir. Muxtar respublikamızın ərazisindəki hər qarış torpağın, daşın altında abidələrimiz, tarximiz yaşayır. Bu ərazidəki arxeoloji abidələr, onlardan əldə olunan maddi mədəniyyət nümunələri Azərbaycan arxeologiyasında özünəməxsus yer tutur. Onların tədqiqi nəticəsində əldə olunan elmi nəticələr xalqımızın etnogenezi və tarixi ilə bağlı irəli sürülmüş saxta fikirlərin heç bir elmi əsası olmadığını sübut edir. Bu cəhətdən hər bir maddi mədəniyyət nümunəsi kimi Naxçıvan şəhərinin ərazisindən aşkar olunmuş Orta əsrlər dövrünə aid olan bir qrup gil qabların öyrənilməsi də mühüm yer tutur. Bu artefaktlar indiyə kimi tədqiq edilmədiyi üçün tərəfimizdən öyrənilmişdir. Tədqiqat zamanı tipoloji təsvir və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Qabların tipoloji təsnifatı və naxış motivi.** Naxçıvan şəhərinin ərazisində aşkar olunmuş bütöv gil qablar məişət və təsərrüfat qablarından ibarətdirlər. Onlar Orta əsrlər dövrünün inkişaf mərhələsinə (XI-XVI əsrlər) aiddir. Bu keramika məmulatları XX əsrin 70-80-ci illərində Naxçıvan Dövlət Universitetinin yerləşdiyi ərazidə aparılmış tikinti işləri zamanı aşkar olunmuşdur. Onların bir çoxu kiçik, bəziləri isə nisbətən iri həcmli düzəldilmişdir. Məişətdə işlədilmiş qablar təsərrüfat qabları ilə müqayisədə nisbətən kiçik ölçülüdür. Qabların hamısı bir qayda olaraq boz rəngdə narın qum qarışığı olan gildən keyfiyyətli düzəldilmişdir. Təsərrüfat qabları qalın, məişət qablar isə nazik gillə hazırlanmışdır. Məişət qabları su qablarından, küpə, təknə tipli qablardan ibarətdir (şəkil 1, 4-8). Su qabları qabarıq, konusvari gövdəli, dar boğazlı, qulpu düzəldilmişdir (şəkil 1, 1, 2). Onların əksəriyyəti naxışsızdır. Bəzilərinin üzərində müxtəlif naxışlar çəkilmişdir (şəkil 1, 3, 4). Bütün tarıxi dövrlərdə olduğu kimi, orta əsrlər dövründə də gil qabların düzəldilməsi, onların üzərinin naxışlanması dulusçuların sənətkarlıq qabiliyyəti, bacarıq və vərdişləri ilə bağlı olmuşdur. Onların üzərindəki hər bir naxış təsadüfən çəkilməmişdir. Onlar dulusçuların sənətkarlıq qabiliyyəti ilə yanaşı, bədi estetik düşüncə tərzini də özündə əks etdirmiş, müəyyən semantik məna daşımışdır.

Bu istiqamətdə araşdırma apararkən məlum olur ki, təsərrüfat küpünün oturacağına çəkilmiş kəmərvarı naxış motivi ən qədim ornamentlərdəndir. Onu yapma üsulu ilə qabın üzərinə vurmuşlar (şəkil 1,4; şəkil 3, 1). Keramika parçasının üzərindəki kəmərvarı naxış oyma üsulu ilə naxışlanmışdır (şəkil 3, 3). Həm təsərrüfat küpünün, həm keramika parçasının üzərindəki kəmərvarı formada olan naxış motivinin semantikası ilə bağlı bitkin fikir söyləmək bir qədər çətindir. Lakin apardı-

ğımız müqayisəli araşdırmaya əsasən qeyd edə bilərik ki, bu tip ornament ən qədim naxış motivindən olmuşdur.




**Şəkil 1.**

Boz rəngli keramika parçasının üzərindəki dalğalı xətlərin kəsişməsindən yaranan nəbati formalı naxış motivi də maraqlı ornamentlərdən biridir (şəkil 3, 2). Bu naxış motivinin semantikası ilə bağlı araşdırma apararkən məlum olur ki, dalğalı xətdən ibarət olan naxış motivi də qədim tarixə malikdir. Cızma üsulu ilə ən çox boyasız qabların üzərində çəkilmişdir. Bu naxış motivindən də Tunc dövrü ilə yanaşı, Eneolit dövründə istifadə edilmişdir. Azərbaycanla yanaşı, Cənubi Qafqazın [21, s. 32], Mərkəzi Asiyanın [17, ris. 3] bir çox abidələrində, Trialetidə [16, tab. 81-90], Macarıstanda [23, tab. 153, 5, 6], Tripoli mədəniyyətinə aid arxeoloji abidələrdə [20, s. 101, ris. 33] və digər yerlərdə üzərində dalğalı xətlərdən ibarət müxtəlif formalı naxışlar olan keramika məmulatları aşkar olunmuşdur. Onlar dünyanın bir çox yerlərində yayılsa da, müxtəlif dövrlərə aid olduğu üçün, ayrı-ayrı dulusçular tərəfindən düzəldildiyinə görə bir-birindən fərqlənir. Çəkilmə formasına görə insanların bədi estetik düşüncə tərzində, dini-ideoloji görüşlərində müxtəlif simvolik mənaya malik olmuşlar. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, Şumer mədəniyyətində qoşa formada çəkilmiş dalğalı xətt axar suyu, çayı, arxı (kanalı) [430, s. 91], Hind və Misir mədəniyyətində tək çəkilmiş dalğalı xətt ilanı [15, s. 68, znak 120, 28] və s. simvolizə etmişdir.




**Şəkil 2.**

Naxçıvan şəhərinin ərazisində aşkar olunmuş keramika məmulatları içərisində təknə tipli qabın oturacaq hissəsinə çəkilmiş təsvir də, maraqlı naxış motivlərindəndir. Onun üzərində basma üsulu ilə dairə, dairənin içərisində isə onikigüşəli ulduza bənzər naxış çəkilmişdir (şəkil 3). Bu naxış motivinin semantikası və yayılma arealı ilə bağlı araşdırma apararkən məlum olur ki, hər bir ornament kimi bu naxış motivi də təsadüfən çəkilməmiş, müəyyən semantik məna daşımışdır.



**Şəkil 3.**

Onun yayılma arealı ilə bağlı apardığımız müqayisəli araşdırma zamanı məlum olmuşdur ki, belə naxış motivi astral təsvirlər qrupuna daxildir. Mənbələrdə belə təsvirlərin günəşi simvolizə etməsi ilə bağlı müxtəlif məlumatlar vardır [13, s. 16]. Azərbaycanın digər bölgələri ilə yanaşı, Naxçıvanda da üzərində bu tip naxış motivi olan gil qablar aşkar edilmişdir. Naxçıvanda üzərində belə naxış motivi olan gil qablar, keramika məmulatları Culfa [3, tab XI, 8], Şahtaxtı [14, таб XXII, 2, 4], Qızılburun [8, səkil 59, 16] nekropollarında aşkar olunmuşdur. Onlar oxşar olsa da, ayrı-ayrı dulusçu emalatxanasının məhsulu olduğu üçün müəyyən lokal xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Bu təsvirin semantikası ilə bağlı aparılan araşdırma zamanı məlum olmuşdur ki, on iki sayı insanların dini-ideoloji görüşlərində də özünəməxsus yer tutmuş, müəyyən semantik məna daşımışdır. Mükəmməlliyi, bütövlüyü, bitkinliyi, dünyanın simvolik modelini bildirən kosmoqonik naxış kimi müxtəlif semantik mənaya malik olmuşdur. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq, görərik ki, on iki sayının insanların dini-ideoloji görüşlərində özünəməxsus yer tutması, müəyyən semantik mənanı ifadə etməsi dünyanın müxtəlif yerlərində müxtəlif şəkildə verilmişdir. Hətta bəzi memarlıq abidələri də on iki bürclü planda tikilmişdir. Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qarabağlar kəndinin ərazisindəki XII-XIV əsrlərə aid dünya əhəmiyyətli memarlıq abidəsi olan Qarabağlar türbəsinin yeraltı sərdabəsi də on iki bucaqlı planda tikilmişdir. Mənbələrə nəzər salsaq görərik ki, müqəddəs kitabımız "Qurani-Kərim"də [6, s. 14, 85, 132, 151], "Kitabi-Dədə Qorqud" dastanında [7, s. 196], qırğızların əfsanələrində [10, s. 317], "Taxta qılınc" Azərbaycan nağılında [1, s. 123], Roma mifologiyasında [18, s. 104; 439, 172], "Bilqamıs" dastanında [2, s. 55], Tövratın "Yaradılış" kitabında (Yaradılış 18, Yaradılış 26, Yaradılış 36, Yaradılış 42 və s.) [9, s. 13, 20, 30, 36], İncilin "Matta" bölməsində (Matta 9, 10, Matta 10, 11, Matta 14, Matta 19, 20 və s.) [5, s. 19, 21, 29, 39], təqvim sistemində [4, s. 5-11] və s. on iki sayı ilə bağlı müxtəlif məlumatlar vardır.

Müqəddəs kitabımız "Qurani-Kərim"də on iki sayının müqəddəsliyi ilə bağlı məlumatlar əl-Bəqərə (inək) surəsinin 60-cı, əl-Maidə (Süfrə) surəsinin 12-ci, əl-Əraf (Sədd) surəsinin 160-cı, ət-Tövbə (Tövbə) surəsinin 36-cı ayələrində vardır.

Əl-Bəqərə (inək) surəsinin 60-cı ayəsində belə deyilir: "Yadınıza salın ki, Musa öz qövmü üçün su istədikdə, Biz ona: *"Əsanı daşa vur!" – dedik. (O, əsanı daşa vuran kimi) ondan (daşdan) on iki çeşmə fışqırdı, hər kəs öz çeşməsini tanıdı. (Sonra onlara:) "Allahın verdiyi ruzidən yeyin-için, fəqət yer üzündə öz həddinizi aşaraq fəsad törətməyin!" (söylədik)* [6, s. 14].

Əl-Əraf (Sədd) surəsinin 160-cı ayəsində belə deyilir: *"Biz onları (İsrail oğullarını) on iki qəbiləyə – ümmətə böldük. Camaatı (Tih səhrasında) ondan (Musadan içməyə) su istədiyi zaman ona: "Əsanı daşa vur!" – deyə vəhy etdik. (Əsanı daşa vuran kimi) ondan on iki çeşmə qaynayıb axmağa başladı. Hər qəbilə özünün su içəcəyi yeri bildi. Biz buludları onların üstündə kölgəlik etdik, onlara qüdrət halvası və bildirçin endirdik. Onlara: "Sizə ruzi olaraq verdiyimiz pak nemətlərdən yeyin!" dedik. Onlar (naşükür olmaqla, əmrlərimizi yerinə yetirməməklə) Bizə deyil, ancaq özlərinə zülm edirdilər!* [6, s. 132].

Ət-Tövbə (Tövbə) surəsinin 36-cı ayəsində deyilir: *"Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) haram aylardır. Bu, doğru dindir (İbrahim və İsmailin gətirdikləri dinin doğru hesabı və hökmüdür). Ona görə də həmin aylarda özünüzə zülm etməyin. Müşriklərin hamısı sizinlə vuruşduqları kimi, siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir*!" [6, s. 151].

"Kitabi-Dədə Qorqud" dastanıda on iki sayı haqqında məlumat dastanın on iki boydan ibarət olmasını, "Salur Qazanın evinin yağmalanması" boyunu və digər faktları nümunə göstərmək olar. "Salur Qazanın evinin yağmalanması" boyunda on iki sayı haqqında məlumat Qaraca Çobanla bağlı olan hadisədə verilmişdir. Dastanda qeyd edilmişdir ki, Qaraca Çoban sapandı ilə hər atanda on iki batman daş atmışdır [7, s. 196]. Qədim Roma mifologiyasında on iki sayı Yupiter, Neptun, Mars, Apollon, Vulkan, Merkuri, Yunona, Venera, Minerva, Diana, Vesta və Çerera allahlarının timsalında əks olunmuşdur [18, s. 104; 22, s. 172]. Şumer mədəniyyətinin incilərindən olan "Bilqamıs" dastanında on iki rəqəmi ilə bağlı məlumat belə əks olunmuşdur: *"...Bilqamıs dostu Enkidunun faciəvi şəkildə ölümündən qorxaraq əbədi həyat axtarışına çıxır. Bu zaman o, Dədə Utnapiştin yanına, yeraltı dünyaya getmək üçün Maşu dağının dibindən keçməli olur. On iki gün müddətində qaranlıq yolu gedərək, qarşısına çıxan bütün maneələri uğurla dəf edir"* [2, s. 55].

Təqvim sistemində on iki sayı ilə bağlı ilin on iki aya bölünməsini, on iki heyvanla bağlı təqvimi və digər faktları nümunə göstərmək olar. Bu tip məlumatlar Azərbaycanla yanaşı, dünyanın bir çoxlu ölkələrində də yayılmışdır [4, s. 5-11]. On iki heyvanla bağlı təqvimin türk təqvimi olduğu, onun türklərdən çinlilərə keçdiyi haqda mənbələrdə məlumatlar vardır [12, 344-345]. B.Ögəl on iki sayının Türk mədəniyyətində özünəməxsus yer tutduğunu və dərin semantik mənasının olduğunu qeyd edərək yazmışdır: "*On iki ayda doğulmaq, yəni ana bətnində normal vaxt olan doqquz aydan artıq qalmaq Türk mifologiyasının mühüm motivlərindən biridir. Böyük qəhrəmanlar və müqəddəs şəxslər həmişə analarının qarnında doqquz aydan artıq qalırdılar. Bu da onların ana bətnində digər normal insanlara nisbətən yetkinləşmə və inkişaf etmə dövrlərinin daha çox olduğunu göstərən bir inancdır*" [10, s. 64].

**Nəticə.** Naxçıvan şəhərinin ərazisində aşkar olunmuş şirsiz qabların təyinatı və naxış motivi ilə bağlı tərəfimizdən aparılan müqayisəli araşdırma nəticəsində sonda onu qeyd etmək olar ki, hər bir maddi mədəniyyət nümunəsi kimi bu arxeoloji materiallar da, tariximizi geniş və dərindən öyrənmək üçün mühüm elmi əhəmiyyət daşıyır. Onların hər biri Orta əsr dövrü mədəniyyətimizin öyrənilməsində özünəməxsus yer tutur. Aparılan müqayisəli araşdırmaya əsasən qeyd etmək olar ki, qədim dövrdə olduğu kimi, bu dövrdə də, hər bir gil qab təsadüfən düzəldilməmiş, mütəlif məqsədlə istifadə edilmişdir. Onların səliqəli və keyfiyyətli olması, üzərindəki naxış motivi dulusçuların sənətkarlıq qabiliyyəti ilə bağlı olmuşdur. Hər bir naxış motivi qaba gözəllik görünüş verməklə yanaşı, müəyyən semantik məna da daşımışdır. Hamısının eyni olmaması, forma və xüsusiyyətinə görə bir-birindən fərqlənməsi onunla bağlı olmuşdur ki, onlar müxtəlif dulusçu emalatxanasının məhsulu olmuş, ayrı-ayrı dulusçular tərəfindən düzəldilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan nağılları: 5 clddə / Tərt. ed. H.Zeynallı. I c., Bakı: Şərq-Qərb, 2005, 360 s.

2. Bilqamıs dastanı / Tərc. ed. İ.Öməroğlu, red. H.Sadıqova. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1999, 92 s.
3. Əliyev V.H. Culfa arxeoloji tapıntıları // Azərbaycan SSR Elmələr Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, Bakı: Az SSR EA, 1968, № 3, s. 72-86.
4. Əsgər R. İqlimdən iqlimə, təqvimdən təqvimə. Bakı: İşıq, 1987, 103 s.
5. İncil / Tərt. ed. Mükəddəs şirketi və Yeni yaşam yayınları. İstanbul: Mat Yapım, 2012, 657 s.
6. Quran (Azərbaycan türkcəsində) / Ərəb dilindən Azərbaycan dilinə tərcümə edənlər Z.M.Bünyadov və V.M.Məmmədəliyev.
7. Kitabi-Dədə Qorqud: əsil və sadələşdirilmiş mətnlər / Tərt. ed. S.Əlizadə. Bakı: Öndər, 2004, 378 s.
8. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 339 s.
9. Tovrat-Tevrat-Azerbaycan Turkcesi. 2004, 831 s.
10. Ögel B. Türk kültür tarihine giriş. I c., 2 baskı, Ankara: Kültür bakanlığı yayınları, 2000, 452 s.
11. Ögel B. Türk mitolojisi. Baskı 4, Ankara: TTK Basımevi, 2006, 626 s.
12. Kafesoğlu İ. Türk milli kültür. Basım 46, İstanbul: Ötüken neşriyyatı, 2021, 454 s.
13. Sevim Ç. Çanakkale örneğinde Bati Anadolu sermikçiliğinin Ege adalarindaki uzantilari / Dokuz Eylül Üniversitesi konferans sunumu. İzmir, 2007, s. 10-21.
14. Агаев Г.Г. Шахтахты в эпоху поздней бронзы и раннего железа. Баку-Москва: Агрыдаг, 2002, 200 с.
15. Альбедиль М.Ф. Забытая цивилизация в долине Инда. Санкт-Петербург: Наука, 1991, 174 с.
16. Жоржикашвили Л.Г., Гогадзе Э.М. Памятники Триалети эпохи ранней и средней бронзы: раскопки 1936-1940, 1947-1948 гг. Тбилиси: Мецниереба, 1974, 123 с.
17. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград: Наука, 1970, 191 с.
18. Мифы Древней Греции / Сост. И.Яворская. Ленинград: Лениздат, 1990, 336 с.
19. Массон В.М., Сарианиди В.И. О знаках на среднеазиатских статуэтках эпохи бронзы // Вестник Древней Истории, Москва, 1969. № 1, с. 86-99.
20. Погожева А.П. Антропоморфная пластика Триполья. Новосибирск: Наука, 1983, 144 с.
21. Шаншашвили Н. Знаки и символы на керамике куро-аракской культуры. Тбилиси: Академия наук Грузии, Центр археологических исследований, 1999, 65 s.
22. Щеглов Г., Арчер В. Мифологический словарь. Москва: Астрель, 2006, 368 с.
23. Kalicz N., Makkay J. Die Linienbandkeramik in der Gro Ben Ungarischen Tiefebene. Budapest: Akadémiai Kiado, 1977, 385 p.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: x.toqrul@gmail.com***

**Togrul Khalilov**

## ABOUT THE ORNAMENTAL MOTIF OF UNGLAZED CERAMICS FOUND IN THE CITY OF NAKHCHIVAN

The study of archaeological materials obtained from our monuments is of great scientific importance for an in-depth study of our history. A significant place is occupied by the study of a group of clay vessels from the Middle Ages found in the city of Nakhchivan, as well as any other sample of material culture. As a result of the investigation, it was established that, akin to ancient times, each clay vessel was not fabricated by chance, but rather utilized for diverse purposes. Their accuracy and quality, as well as the motifs of their ornaments, were determined by the skill of the

potters. Each motif of the ornament not only gave the dishes a beautiful appearance, but also had a specific semantic meaning. The fact that they are different from each other in shape and characteristics is explained by the differences in their purpose, as well as the fact that they are products of different pottery workshops.

**Keywords:** *Nakhchivan, Middle Ages, clay vessels, pots, ornamental motif.*

**Тогрул Халилов**

## О МОТИВЕ ОРНАМЕНТА НЕГЛАЗУРОВАННОЙ КЕРАМИКИ, ОБНАРУЖЕННОЙ НА ТЕРРИТОРИИ ГОРОДА НАХЧЫВАН

Изучение археологических материалов, полученных из наших памятников, имеет большое научное значение для углубленного изучения нашей истории. В этой связи важное место занимает изучение группы глиняных сосудов эпохи Средневековья, обнаруженных на территории города Нахчывана, а также любого другого образца материальной культуры. В результате исследования было установлено, что, как и в древности, каждый глиняный сосуд не изготавливался случайно, а использовался для самых разных целей. Их аккуратность и качество, а также мотивы их орнаментов были обусловлены мастерством гончаров. Каждый мотив орнамента не только придавал посуде красивый вид, но и имел определенное смысловое значение. Тот факт, что они не все одинаковы и отличаются друг от друга по форме и характеристикам, объясняется различиями в их назначении, а также тем, что они являются изделиями разных гончарных мастерских.

**Ключевые слова:** *Нахчыван, Средние века, глиняные сосуды, горшки, мотив орнамента.*

*(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 14.01.2025**
**Son variant 12.02.2025**